# “Yunayted Kredit Bank” Açıq Səhmdar Cəmiyyətinin
# Audit Komitəsinin Əsasnaməsi

## 1. Ümumi müddəalar

1.1. Audit Komitəsi (bundan sonra Komitə adlanacaqdır) "Banklar haqqmda" Azərbaycan Respublikası Qanunu, ASC Yunayted Kredit Bankm Nizamnaməsi və bu Əsasnamə əsasında fəaliyyət göstərir.

1.2. Komitə bankın fəaliyyətinə nəzarəti və monitorinqi həyata keçirən orqandır və Səhmdarların Ümumi Yığmcağı qarşısmda hesabat verir.

## 2. Komitənin səlahiyyətləri və vəzifələri

2.1. Komitə aşağıdakı səlahiyyətlərə malikdir:

2.1.1. bankin audit siyasətini və strategiyasmı müəyyən etmək;

2.1.2. daxili audit planlarmı təsdiq etmək və audit bölməsinin fəaliyyətinə nəzarəti həyata keçirmək;

2.1.3. kənar auditin təyin edilməsi ilə əlaqədar Müşahidə Şurasma təkliflər vermək;

2.1.4. kənar auditlə birgə işi təşkil etmək, auditin nəticə və tövsiyələrinin həyata keçirilməsinə yardım emək;

2.1.5. bankm idarəetmə orqanları, kənar auditorlar, habelə nəzarət orqanları ilə əlaqələr yaratmaq;

2.1.6. daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığmcağına və Müşahidə Şurasına təkliflər vermək;

2.1.7. Səhmdarlann Ümumi Yığıncağmm, Müşahidə Şurasımn və Idarə Heyətinin qəbul etdiyi bankm fəaliyyəti ilə bağlı bütün qərarlarla tanış olmaq;

2.1.8. bankm bütün daxili qaydaları və strategiyası ilə tanış olmaq;

2.1.9. İdarə heyətindən Komitənin öz funksiyalarmı həyata keçirmək üçün bütün məlumatları almaq;

2.1.10 bank qanunvericiliyinə, bankın nizamnaməsinə və Milli Bankın normativ sənədləri tələblərinin yerinə yetirilməsini İdarə heyətindən tələb etmək;

2.1.11. bankın daxili audİtinin təyin olunması zamanı öz münasibətini bildirmək və onun işinə qiymət vermək;

2.1.12. daxili audit struktunun rəhbərinin və işçilərinin işdən azad olması və ya dəyişdirilməsi barədə Müşahidə Şurası qarşısında məsələ qaldırmaq;

bankm illik hesabatına rəy vermək;

2.1.13. kənar və daxili auditorlarm nümayəndələri ilə görüşlər keçirmək;

2.1.14. Bankm struktur bölmələri üzrə xüsusi audit yoxlamalan və təftişlər keçirilməsini sifariş vermək;

2.1.15. Bankm fəaliyyətinə və əməkdaşlara aid olan hər hansı məlumatlar üzrə sorğu vermək;

2.1.16. fəaliyyəti məqsədləri üçün ehtiyac olduqda müstəqil ekspertləri cəlb etmək;

2.1.17. ehtiyac olduqda öz iclaslarma bankm əməkdaşlarım, kənar auditorları və müstəqil ekspertləri dəvət etmək;

2.1.18. İdarə Heyyətinin iclaslarmda səs hüququna malik olmadan iştirak etmək;

2.1.19. Müşahidə Şurasmm iclaslarmda səs hüququna malik olmadan iştirak etmək;

2.1.20. Müşahidə Şurasmm növbədənkənar iclasmm keçirilməsini tələb etmək;

2.1.20. Səhmdarlarm nöbədənkənar Ümumi Yığmcağmm çağırışını tələb etmək;

2.1.21.Bu Əsasnamə və Azərbaycan Respublikası Milli Bankmın normativ aktları ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

2.2. Komitə bankda aşağıdakı hallarda bank qanunvericiliyi, bankm Nizamnaməsi və

Milli Bankın normativ sənədlərinin tələblərinin yerinə yetirilməsi, habelə bankda mühasibat işinin vəziyyətinin yoxlanılmasını Daxili Audit Departamentindən tələb edə bilər:
2.2.1. özünün tərtib etdiyi plan əsasmda;
2.2.2. Səhmdarların Ümumi Yığıncağının tələbi əsasında;
2.2.3. 5%-dən çox paya malik olan səhmdarların tələbi əsasmda;
2.2.4. Müşahidə Şurasınm tələbi əsasında;
2.2.5. Milli Bankm tələbi əsasında;
2.2.6. Kənar auditin tələbi əsasında.
2.3. Komitə bankın fəaliyyətinə nəzarət və monitorinqi həyata keçirən zaman aşağıdakı prinsiplərə riayət edir:
2.3.1. bankm cari iş fəaliyyətinə maneçilik törədilməməsi;
2.3.2. təkrar yoxlamalarm aparılmaması;
2.3.3. lazımsız məlumatlarm hazırlatdırılmaması və tələb edilməməsi.
2.4. Komitə öz fəaliyyəti barədə ildə bir dəfədən az olmayaraq, Səhmdarlann Ümumi Yığmcağı qarşısında hesabat verir.

## 3. <u>Komitənin seçkisi, iclasları və səlahiyyət müddəti</u>

1.1. Komitə, Sədr də daxil olmaqla, 3 nəfərdən ibarət olub, səhmdarların ən azı 60%-nin iştirak etdiyi ümumi yiğincaq tərəfındən, yiğincaq iştirakçılarmın 75% səs çoxluğu ilə təyin edilir. Bu zaman mühüm iştirak payına malik olan səhmdarların və ya onların nümayəndələrinin Komitədə təmsil olunmaqda üstünlük hüququ vardır.
1.2. Komitənın üzvləri bir qayda olaraq səhmdarlarm illik ümumi yiğincaği keçirilən zaman, yiğincaq iştirakçılarınm qərarlarından asılı olaraq gizli və ya açıq səsvermə yolu ilə 4 İl müddətinə seçilirlər. Komitəmn üzvləri təkrar seçilə bilərlər.
1.3. Müşahidə Şurası və İdarə heyəti üzvlərinin Komitəyə seçilməsinə və onun işində iştirakma icazə verilmir.
1.4. Komitənin Sədri və üzvləri seçilərkən aşağıdakı kriteriyalar götürülür:

3.4.1. iqtisadi, biznes və ya hüquqi təhsilin olması;
3.4.2. vətəndaş qüsursuzluğuna malik olmaq;
3.4.3. ən azı bir il kredit institutunun idarə edilməsində təcrübəsi. Hətta üzvün iqtisadi və ya hüquqi təhsili olmasa belə, onun hər hansı bir kredit institutıında və ya oxşar sahədə ən azı bir illik rəhbərlik təcrübəsinin olması zəruridir. İstisna hallarda, biznesin istənilən sahəsində rəhbərlik təcrübəsi olanlar da Şuranın üzvlüyünə seçilə bilərbr.
1.5. Aşagıdakı şəxslər Komitənin üzvləri ola büməzlər:
3.5.1. maliyyə vəziyyətinin pisləşməsi və prudensial tələbləri pozmaqla
əlaqədar məcburi ləğv olunmuş, yaxud müflis elan olunmuş bankda ləğvetmə və ya iflas haqqında qərarın qəbul edildiyi tarixdən bir il əvvəl bankın inzibatçısı işləmiş şəxslər (belə şəxslər üç il ərzində başqa bankın inzibatçısı ola bilməzlər);
3.5.2. üç ildən az olmayan müddət ərzində başqası ilə əvəz edilməsi barədə Milli Bankın tələbİ ilə hər hansı bankm, filiahn və ya şöbənin inzibatçısı vəzifəsindən azad edilmiş şəxs (işə bərpa olunması haqqında barəsində qanımi qüvvəyə minmiş məhkəmə qərarı olan şəxslər istisna olmaqla);
3.5.3. Məhkumluğu olan, keçmişdə mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində ağır və xüsusilə ağır cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilmiş şəxslər, habelə barələrində mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində ağır və xüsusilə ağır cinayətlərin istintaqına müddətin keçməsinə və ya amnistiyaya

əsasən xitam verilməsi, müvafıq vəzifəni tutması və ya peşə fəaliyyəti ilə məşğul olması, üzərində məhkəmə qərarı ilə qadağa qoyulması, məhkəmə qaydasında müflis elan edilməsi faktları olan şəxslər;
3.5.4. Bankın inzibatçısı hüququndan qanunla məhrum edilmiş şəxslər;
3.5.5. Bankın digər idarəetmə orqanının üzvü olan şəxslər;
3.5.6 Bankda digər vəzifə tutan şəxslər.

1.6. Komitənin üzvlərinin hamısımn iştirak etdiyi iclas yetərsaylı hesab olunur və qərarlar açıq səsvermə ilə adi səs çoxluğu prinsipi ilə qəbul edilir. İclasa Komitənin Sədri sədrlik edir. Səsvermə zamanı bitərəf qalmağa icazə verilmir. İclaslarmda səsvermə 1 üzv = 1 səs prinsipi ilə həyata keçirilir. İclasm nəticəbri protokolla rəsmibşdirilir.
1.7. Komitənin plan üzrə iclasları rübdə bir dəfədən gec olmayaraq keçirilir. Komitənin növbədənkənar iclasları onun üzvlərindən birinin təşəbbüsü, Səhmdarlarm Ümumi Yığmcağmm, mühüm iştirak payma malik səhmdarların, Müşahidə Şurasmm və İdarə heyətinin müraciəti ilə çağırıla bilər.
1.8. Komitənin Sədri və üzvləri aşağıdakı hallarda səhmdarların ümumi yığıncağı tərəfmdən vaxtmdan əvvəl geri çağırılırlar:

3.8.1. bu və ya digər səbəbdən üzv səhmdar və onun vəkalətli nümayəndəsi hüququnu itirdikdə;
3.8.2. rəqib kredit institunun sərəncamverici və icraedici orqanlarma seçildikdə;
3.8.3. bank fəaliyyətini tənzimləyən orqana işə keçdikdə;
3.8.4. onlara həvalə olunmuş işlərin öhdəsindən gəlmədikdə;
3.8.5. öz xahişbri ilə;
3.8.6. qanunvericiliyin təbb etdiyi digər hallarda.
1.9. Komitənin üzvbrinin bankın fəaliyyəti ib məxfı saxlanılması nəzərdə tutulan məlumatları yaymasına icazə verilmir.
1.10. Komitənin, bankm cari fəaliyyəti ib bağlı qərar qəbul edib onun yerinə yetirilməsini İdarə heyətindən təbb etməsinə yol verilmir. Komitənin səlahiyyətbri daxilində həyata keçirdiyi nəzarət zamanı, həyata keçirilməli olan tədbirlər üzrə qərarlar Müşahidə Şurası tərəfmdən qəbul edilir.
1.11. Komitənin vəzifələri aşağıdakılardan ibarətdir:
3.11.1. nəzarət sistembrinin yaradılması və tətbiq edilməsi, daxili nəzarətin əhəmiyyətliyinə, riskbrin idarəedilməsinə, əməliyyat riskbri daxil olmaqla onlarm minimallaşdırılmasma önəm verməkb, nəzarət sistembrinin təkmilləşdirilməsi üzrə tövsiyyəbrin hazırlanması;
3.11.2. kompüter sisteminin mühafızəsi üçün və məlumat sistemində yarana biləcək nasazlıqlar zamanı maliyyə məlumatlarmm təhlilini təmin edəcək fövqaladə tədbirlər planlarının hazırlanması və qiymətləndirilməsi;
3.11.3. daxili və Kənar auditorlar tərəfmdən irəli sürülmüş daxili nəzarət üzrə tövsiyyələrin İdarə Heyəti tərəfindən icra olunub olunmamasma nəzarət;
3.11.4. Mühüm maliyyə risklərinin cari sahələrinə və icra strukturları tərəfındən onlarm səmərəli idarə edilməsinə nəzarət;
3.11.5. maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir edə biləcək hər hansı hüquqi məsələləri nəzərdən keçirmək;
3.11.6. Bankm illik və cari maliyyə hesabatlarmm hazırlanma prosesinə və nəticələrinə nəzarət;
3.11.7. Daxili Audit Departamentinin fəaliyyətini tənzimləmək və onım fəaliyyətinə nəzarət;

3.11.8. Daxili Audit Departamentinin müdiri və əməkdaşlarmm vəzifə təlimatlarını, şöbənin illik iş planı və programlarmı, daxili audit hesabatlarını, nəzarət sisteminin təkmilləşdirilməsi üzrə tövsiyyələr vermək;
3.11.9. Daxili Audit Departamentinin əməkdaşlarmm səmərəliliyini və peşə yararlığmı nəzərdən keçirmək;
3.11.10. Daxili Auditorlar tərəfındən təqdim edilmiş mühüm nəticələrin və tövsiyyələrin müntəzəm əsasda müzakirəsini təmin etmək;
3.11.11. Kənar Auditorlarm fəaliyyətini nəzərdən keçirmək, onlarm müstəqilliyini təmin etmək;
3.11.12. Kənar Auditorlar tərəfmdən təqdim olunmuş mühüm nəticələrin və tövsiyyələrin müzakirəsini təşkil etmək;
3.11.13. Bank tərəfmdən qanun və normativ sənədlərə riayyət olunmasma nəzarət;
3.11.14. Maliyyə hesabatlarmm hazırlanması prosesində bütün qanun və Azərbaycan Milli Bankmm normativ aktlarınm təbblərinə riayyət olunmasma nəzarət;
3.11.15. Tənzimbyici orqanlar tərəfındən aparılmış yoxlamalarm nəticələrini nəzərdən keçirir və onlarm audit xidmətinin təkmilləşdirilməsi üzrə tövsiyyələrini icra etmək;
3.11.16. Davranış Məcəlləsinə riayyət olımması üzrə nəzarət sisteminin işləməsinə nəzarət;
3.11.17. Müntəzəm olaraq Komitənin fəaliyyəti haqqmda (azı ildə bir dəfə)Səhmdarlarm Ümumi Yığmcağına hesabat verir və müvafıq tövsiyyələri təqdim etmək;
3.11.18. Daxili Audit,Kənar Auditorlar və Müşahidə Şurası arasmda münasibətləri tənzimləmək;
3.11.19. Bankın ümumi fəaliyyətində mövcud olan və yarana biləcək risklər üzrə daima Müşahidə Şurasmı məlumatlandırmaq;
1.12. Komitə Səhmdarlarm Ümumi Yığmcağına aşağıdakı hesabatları təqdim etmək:
3.12.1. bankda qanunvericiliyə riayət olunması barədə hesabat;
3.12.2. bankdan maliyyə uçotu və hesabatlar barədə hesabat;
3.12.3. audit fəaliyyəti barədə hesabat;
3.12.4. bankda risklərin idarə edilməsi və nəzarət sistemlərinin vəziyyəti barədə hesabat;
3.12.5. bankm xarici auditor tərəfmdən təsdiq olunmuş balans, mənfəət və zərərlər hesabatı, habelə maliyyə əmasılları barədə hesabat;
3.12.6. bankda risklərin və nəzarət sistemlərinin, uçot və qanunvericilyin təkmilləşdirilməsi barədə təkliflər;
3.12.7. bu Əsasnamə üzrə Komitənin vəzifələrinə aid olan digər məsələlər üzrə hesabat.
1.13. Komitə Müşahidə Şurasma aşağıdakı hesabatları təqdim edir:
3.13.1. qanunvericiliyin tələblərinə əməl edilməsi, aşkar olunmuş qanun pozuntuları haqqmda məlumat və onlarm aradan qaldırılması üçün fəaliyyət planı;
3.13.2. daxili nəzarətin vəziyyətinin yoxlanması barədə hesabat və onun səmərəliliyinin artırılması barədə tövsiyələr, habelə kənar audit hesabatı və rəhbərliyə verilən təkliflər daxil olmaqla, kənar audit ilə əlaqədar bütün yazışmalar;
3.13.3. banka, onunla əlaqədar şəxslərə təsir edə biləcək gözlənilən məhkəmə işi və ya cəlb edilmiş məhkəmə icraatı haqqmda məlumat;
3.13.4. banka aid ola bilən hər hansı bir qanunverisilik aktı haqqmda

məlumat.

## 4. Komitə və onun Sədrinin qərar qəbuletmə səlahiyyətləri

4.1. Komitənin aşağıdakı məsələlər üzrə qərarqəbuletmə səlahiyyətləri vardır:
4.1.1. Daxili Audit Departamentinin audit planmı təsdiq etmək;
4.1.2. növbədənkənar audit aparılması barədə qərarlar qəbul etmək;
4.1.3. Daxili Audit Departamentinin və onun işçilərinin işdən kənarlaşdırılması üzrə Müşahidə Şurası qarşısmda vəsatət qaldırmaq;
4.1.4. Daxili Audit Departamentinin Əsasnaməsini təsdiq etmək;
4.1.5. Səhmdarlarm Ümumi Yığmcağmm ona vermiş olduğu səlahiyyət çərçivəsində digər qərarlar qəbul emək.
4.2. Komitənin qərarları onun iclaslarında bu Əsasnamənin 3.6-cı maddəsində göstərilən qaydada səsvermə yolu ilə qəbul edilir.
4.3. Komitə Sədrinin və ya onım ayrı-ayrı üzvlərinin Komitə admdan təkbaşma qərarlar qəbul etməsinə və onun icra edilməsini İdarə Heyətindən və ya bankın digər icra strukturlarmdan tələb etməyə yol verilmir.
4.4. Komitənin qərarları Daxili Audit Departamenti üçün məcburidir və bu qərarlar mütləq yerinə yetirilməlidir. Daxili Audit Departamenti Komitənin qərarlarmm yerinə yetirilməsi üçün məsuliyyət daşıyır.
4.5. Komitənin Sədri aşagıdakı salahıyyətlərə malikdir:
4.4.1. Komitənin iclaslarmda qəbul olunmuş sənədləri təsdiq etmək;
4.4.2. Komitənin iclasmı çağırmaq və iclasları idarə etmək;
4.4.3. Bankı ona verilmiş səlahiyyətlər daxilində səhmdarlarm adından təmsil etmək;
4.4.4. Daxili Audit Departamentinin Direktoru və onun işçilərinin vəzifə təlimatlarmı təsdiq etmək;
4.4.5. Komitənin icra aparatmı formalaşdırmaq, işçiləri işə qəbul etmək, onlarla müqavilə bağlamaq və vəzifə təlimatlarmı təsdiq etmək;
4.4.6. Komitə üzvlərinə bonus, mükafat verilməsi üzrə Səhmdarların Ümumi Yığmcağma təkliflər vermək;
4.4.7. Komitənin iclaslarıarası dövrdə Daxili Audit Departamentinin fəaliyyətinə nəzarət etmək və tənzimləmək;
4.4.8. Səhmdarlarm Ümumi Yığmcağmm ona vermiş olduğu digər səlahiyyət çərçivəsində digər qərarlar qəbul etmək.
4.6. Komitə Sədirinin 4.4.-cü bənddə göstərilənlərdən əlavə səlahiyyətlət yalnız bu Əsasnaməyə Səhmdarlarm Ümumi Yığmcağı tərəfmdən müvafıq dəyişiklik və əlavələr edildikdən sonra verilə bilər. Bu isə o deməkdir ki, bu Əsasnamənin 4.4.-cü bəndində göstərilənlər istisna olmaqla, Komitə adından Komitə Sədinin təkbaşma qərarlar qəbuletmə səlahiyyəti yoxdur.
4.7. Komitə Sədrinin riskli və nəzarət sistemlərinin adekvatlılığnı nəzarətə mənfi təsir edə biləcək sahələr üzrə təkbaşma qərar qəbuletməsinə yol verilmir.